**2024-cü ilin yanvar-mart aylarında avtomobil yollarında baş vermiş yol-nəqliyyat hadisələri haqqında**

2024-cü ilin yanvar-mart aylarında 325 və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 12,2 faiz az yol-nəqliyyat hadisəsi baş vermiş, bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 10,6 faiz azalaraq 446 nəfər olmuşdur. Onlardan 159-u həlak olmuş, 287-si isə yaralanmışdır. Hadisələrin 40,9 faizi gündüz, 36,3 faizi gecə, 22,8 faizi isə toran vaxtı baş vermiş, 25,2 faizi həftənin şənbə və bazar günlərinə təsadüf etmişdir.

Yol-nəqliyyat hadisələrinin 86,8 faizi yaşayış məntəqələrində baş vermiş, bu hadisələr nəticəsində həlak olanların sayı ötən ilin müvafiq dövrünə nisbətən 11,4 faiz azalaraq 117 nəfər, yaralananların sayı isə 15,2 faiz azalaraq 268 nəfər olmuşdur.

**Yol-nəqliyyat hadisələrinin və zərərçəkənlərin sayı**

| Göstəricinin adı | 2024-cü ilin yanvar-mart aylarında | 2023-cü ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Bütün yol-nəqliyyat hadisələri – cəmi** | **325** | **87,8** |
| **Məkanına görə:** | | |
| magistral avtomobil yollarında | 43 | 110,3 |
| yaşayış məntəqələrində | 282 | 85,2 |
| **İşıqlılıq vəziyyətinə görə:** | | |
| gündüz vaxtı | 133 | 76,9 |
| toran vaxtı | 74 | 93,7 |
| gecə vaxtı | 118 | 100,0 |
| **Yol örtüyünün vəziyyətinə görə:** | | |
| quru yol örtüyü | 191 | 55,4 |
| digər (yaş, buz və s.) | 34 | 136,0 |
| **Zərərçəkənlərin sayı, nəfər** | **446** | **89,4** |
| həlak olanlar | 159 | 91,9 |
| yaralananlar | 287 | 88,0 |

Bütün yol-nəqliyyat hadisələrinin 42,2 faizi nəqliyyat vasitələrinin və piyadaların, 36,9 faizi bir neçə nəqliyyat vasitəsinin, 20,9 faizi isə bir nəqliyyat vasitəsinin iştirakı ilə baş vermişdir. Yol-nəqliyyat hadisələri nəticəsində həlak olanların 79,9 faizini, yaralananların isə 72,1 faizini kişilər təşkil etmişdir.

Nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən ölümlə və ya bədən xəsarəti alınması ilə nəticələnən 7 hadisə baş vermiş, nəticədə 2 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır. Hadisələrin hamısı minik avtomobillərinin sürücüləri tərəfindən törədilmişdir.

Əlaqə telefonu: 377-10-70 (22-22)